*"Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 may 2015-ci il № 41 (1957) Qiyməti 25 qəpik


## 28 May - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib

***Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.***

***Azərbaycanın Dövlət himni səsləndi.***

***Prezident İlham Əliyev rəsmi qəbulda nitq söylədi.***



- Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması dünya miqyaslı tarixi hadisə idi. Çünki müsəlman aləmində ilk demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu tarixi Azərbaycan xalqı yazıb. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması bir daha onu göstərir ki, Azərbaycan xalqı çox istedadlı, vətənpərvər və mütərəqqi xalqdır. Azərbaycan xalqı müstəqilliyə qovuşurdu.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsi bizim üçün əzizdir. Azərbaycan dövləti və Azərbaycan xalqı onların xatirəsini ehtiramla yaşadır. Bir neçə il bundan əvvəl mənim sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Bu gün səhər mən o abidəni ziyarət etdim.

Dövlət quruculuğu prosesi başlamışdı. Demokratik institutlar təsis edilmişdi. Siyasi islahatlar aparılmağa başlamışdı. Bizim dövlət atributlarımız qəbul edilmişdi - dövlət himnimiz, milli bayrağımız təsdiq edilmişdi. Qadınlara səsvermə hüququ verilmişdi. Onu da qeyd etməliyəm ki, Azərbaycan Xalq Cümhuriyyəti bunu bəzi Avropa ölkələrindən daha da əvvəl etmişdi. Bir sözlə, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti çox müsbət, uğurlu idi. Baxmayaraq ki, Xalq Cümhuriyyəti bunu çox ağır geosiyasi şəraitdə edirdi.

Eyni zamanda, əfsuslar ki, itkilərimiz də olmuşdur. Onların içində ən böyük itkimiz İrəvanın Ermənistana verilməsi olmuşdur. Bu, sağalmayan yaradır. Əlbəttə, biz tarixi həqiqətləri bilməliyik. Əfsuslar ki, tarix yaşlı nəslə təhrif edilmiş şəkildə təqdim olunurdu. Biz oxuduğumuz tarix kitablarında tarixi həqiqətləri görmürdük. Ona görə bəzi qaranlıq məqamlar da olmuşdur. Bu gün Azərbaycan müstəqil dövlət kimi dünyaya açıqdır. Bu gün bütün tarixi həqiqətlər hər bir Azərbaycan vətəndaşı üçün bəllidir, artıq sirr deyil. İrəvanın Ermənistana verilməsi, əlbəttə ki, böyük səhv idi. Əfsuslar olsun ki, bu addım gələcəkdə Azərbaycana yönəlmiş erməni işğalçı siyasətini dayandırmamışdır.

Respublikanın ömrü qısa olmuşdur. Əgər iki ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etməsəydi, bəlkə də bu gün Azərbaycan dünya miqyasında ən inkişaf etmiş ölkə ola bilərdi. Ondan sonra Sovet dövrü başlamışdır. Sovet dövründə həm müsbət, həm mənfi tərəflər var idi. Hesab edirəm ki, bizim alimlər Sovet dövrünü də və Azərbaycanın rolunu da daha geniş şəkildə təhlil etməli, sanballı elmi əsərlər təqdim edilməlidir. Necə ki, vaxtilə mənim məsləhətimlə alimlərimiz İrəvan xanlığı haqqında çox dəyərli, tarixi həqiqətə əsaslanmış elmi əsər yaratmışlar.

Sovet dövrü də mürəkkəb dövr idi, Azərbaycan müstəqil, azad deyildi. Ancaq, eyni zamanda, xalqımız inkişaf edirdi. Azərbaycanda o illərdə elm, təhsil inkişaf edirdi. Bu gün biz qürur hissi ilə deyirik ki, Azərbaycanda savadlılıq 100 faiz səviyyəsindədir. Bunun əsası, əlbəttə ki, Sovet dövründə qoyulmuşdur.

Ölkəmizin sənaye potensialı inkişaf edirdi, xüsusilə neft sənayesi. Bu yaxınlarda faşizm üzərində Qələbənin 70 illiyini qeyd edərkən bütün dünya bir daha gördü ki, Azərbaycan xalqı, Azərbaycan neftçiləri ümumi Qələbəyə nə qədər böyük töhfə vermişlər. Azərbaycan nefti olmasaydı, müharibənin nəticələri fərqli ola bilərdi.

Sovet dönəmində Azərbaycanın sürətli inkişaf dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Sadəcə olaraq, statistik rəqəmlərə baxmaq kifayətdir ki, bunu hər kəs görsün. Məhz 1970-ci illərdən başlayaraq, Azərbaycanda çox böyük quruculuq işləri aparılmışdır. Əgər 1970-ci illərə qədər Azərbaycan Sovet İttifaqında ən geridə qalmış yerlərdə idisə, 1980-ci illərin əvvəllərində Azərbaycan ən qabaqcıl yerlərə çıxa bilmişdir. Rusiya Federasiyasından başqa, cəmi iki respublika donor kimi fəaliyyət göstərirdi, onlardan biri də Azərbaycan idi.

Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. O dövrü də biz hamımız yaxşı xatırlayırıq. O dövr də çox ağır dövr idi. O dövrdə Azərbaycan böyük itkilər vermişdir. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir. Xaos, anarxiya, iqtisadi və siyasi böhran, vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi. Xüsusilə Kəlbəcər, Laçın, Şuşa rayonlarının işğalından sonra Ermənistan ilə Dağlıq Qarabağ arasında coğrafi bağlantı yarandı və bu, müharibənin birinci mərhələsinin yekunlarına, əlbəttə ki, öz mənfi təsirini göstərmişdir.

1993-cü ildə xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra vəziyyət sabitləşdi. Əlbəttə, sabitlik başlıca şərt idi ki, Azərbaycan inkişaf etsin. Siyasi sabitlik, ondan sonra iqtisadi sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir, siyasi, iqtisadi islahatlar aparılmağa başlanmışdır. Bir sözlə, o tarix - 1993-cü il müstəqil Azərbaycanın yeni dövrünün başlaması idi. Əslində müstəqilliyimiz məhz o vaxt başlamışdır. O dövrdən başlayaraq bu günə qədər Azərbaycan sürətlə inkişaf edir.

Mayın 10-da - ulu öndərin doğum günündə o dövrü və ondan sonrakı dövrü mən geniş təhlil etdim. Bu gün Azərbaycan dövləti möhkəm əsaslar, milli maraqlar üzərində qurulub. Bizim milli ideologiyamız, azərbaycançılıq fəlsəfəsi bütün cəmiyyəti birləşdirir. Müstəqil Azərbaycan dövləti möhkəm milli dəyərlər üzərində qurulubdur. Bizim güclü iqtisadi dayaqlarımız var. İqtisadi potensial həm iqtisadi, həm də siyasi müstəqilliyimizi şərtləndirir. Beynəlxalq aləm Azərbaycanın dünyadakı rolunu qiymətləndirir və bizə çox böyük dəstək verir.

Ölkəmizdə bütün işlər müsbət istiqamətdə inkişaf edir. Bir neçə il bundan əvvəl yaşanan iqtisadi və maliyyə böhranı, - bu böhran bütün dünyanı bürümüşdü, - Azərbaycana çox az təsir etmişdir. Hazırda yenə də dünyada yaşanan siyasi, hərbi və iqtisadi böhran Azərbaycana təsir etmir. Ona görə ki, biz düşünülmüş siyasət aparırıq. Bizim siyasətimiz milli maraqlar üzərində qurulubdur. Milli maraqlar, Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür. Biz öz gələcəyimizi bunda görürük. Müstəqil siyasətin aparılması həm ölkədəki vəziyyəti daha da sabitləşdirir, eyni zamanda, dünya miqyasında Azərbaycan etibarlı tərəfdaş kimi tanınır. Bizim sözümüzün çəkisi var və bizim rolumuz həm regionda, həm qitədə, həm də dünyada artmaqdadır.

Biz buna özümüz nail olmuşuq - Azərbaycan xalqının zəhməti, istedadı hesabına və düşünülmüş siyasət nəticəsində. Heç kim bizə kömək etməmişdir. Bu gün reallıqlar onu göstərir ki, dünya miqyasında Azərbaycan kimi sürətlə inkişaf edən ölkə çətin tapılsın.

Eyni zamanda, ölkəmizdə ictimai proseslər müsbət istiqamətdə inkişaf edir. Azərbaycanda vətəndaş cəmiyyəti tam formalaşıb. Azərbaycanda azad cəmiyyət mövcuddur. Bütün azadlıqlar təmin edilir, o cümlədən iqtisadi, siyasi sahədə. Bu, bizim uğurlu inkişafımızı təmin edir. Baxın, dünyanın müxtəlif yerlərində qanlı toqquşmalar, müharibələr, böhranlar yaşanır. Əvvəldən qalan münaqişələr öz həllini tapmır, üstəgəl yeni münaqişə zonaları yaradılır. Bu, bizim gözümüzün qabağındadır. Ancaq Azərbaycan burada yenə də sabitliklə, düşünülmüş siyasətlə seçilir. Azərbaycan bu gərgin məkanda nəinki sabitlik adasıdır, eyni zamanda, sabitləşdirici amildir. Bizim bölgəyə çox müsbət təsirimiz var. Siyasi təşəbbüslər, iqtisadi, enerji, nəqliyyat təşəbbüsləri regional əməkdaşlığın əsasını təmin edir və burada Azərbaycanın rolu artır. Əlbəttə, bu, bizi sevindirir. Ancaq ən önəmlisi ondan ibarətdir ki, bizim artan beynəlxalq nüfuzumuz ölkəmizin inkişafına çox müsbət təsir göstərir.

Neftin qiymətinin aşağı düşməsi də bizə o qədər də böyük problem yaratmadı. Hər halda, bütün sosial proqramlar, nəzərdə tutulmuş bütün infrastruktur layihələri icra edilir. Əlbəttə ki, biz öz xərclərimizə yenidən baxmalı olduq. Ancaq hesab edirəm ki, burada müsbət məqamlar da çoxdur. Biz gələcəkdə öz maliyyə resurslarımızdan daha da qənaətlə istifadə edəcəyik, ölkəmizin və real sektorun inkişafı üçün daha çox diqqət göstərəcəyik, əsas vəsaiti bu istiqamətə yönəldəcəyik. Təbii ki, sosial proqramlar və sosial məsələlər, o cümlədən sosial infrastrukturun yaradılması da diqqət mərkəzində olacaqdır.

**(Ardı 2-ci səhifədə)**

## Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

***Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.***



Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

* * *

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixinə şanlı hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmağı qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib.

Doxsan yeddi il əvvəl mayın 28-də Tiflisdə qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndən - "Əqdnamə"dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib.

XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoyub.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarixi - 28 Mayı Respublika Günü kimi qeyd edir.

**AZƏRTAC**

# 28 May - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib

(Əvvəli 1-ci səhifədə)



Bu gün bayram ərəfəsində mən qarşıda duran vəzifələr haqqında öz fikirlərimi bildirmək istəyirəm. Mən bu məsələlərlə bağlı mütəmadi qaydada öz sözlərimi deyirəm, çıxış edirəm, xalqa hesabat verirəm və gələcək istiqamətlər haqqında fikirlərimi çatdırıram.

Daxili siyasətlə bağlı bizim çox konkret proqramlarımız var. Azərbaycanda daxili sabitlik qorunur, bütün azadlıqlar təmin edilir. Gələcəkdə Azərbaycanda demokratiyanın inkişafı prosesi daha da sürətlə gedəcək. Hüquqi dövlət quruculuğu prosesi də uğurla gedir. Bütün azadlıqlar bundan sonra da təmin ediləcək. Mətbuat azadlığı, söz azadlığı, siyasi fəaliyyət azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan, din azadlığı tam şəkildə təmin edilir və biz gələcəkdə də bu yolla gedəcəyik. Biz möhkəm demokratik əsaslar qururuq ki, ölkəmizin inkişafı dayanıqlı və uzunmüddətli olsun.

Azərbaycanda dinlərarası münasibətlər ən müsbət şəkildə tənzimlənir. Bunu Azərbaycan xalqı qeyd edir, görür. Eyni zamanda, Bakıya, Azərbaycana gələn bütün xarici qonaqlar da bunu qeyd edirlər ki, Azərbaycanda dinlərarası, mədəniyyətlərarası münasibətlər ən yüksək səviyyədə təmin edilir. Bu da bizim çox böyük sərvətimizdir və ölkəmizin gələcəkdə uğurlu, təhlükəsiz inkişafı üçün əsas şərtdir. Bundan sonra da Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayacaq. Bizim dövlət siyasətimiz bundan ibarətdir. Milli, etnik, dini müxtəliflik bizim böyük sərvətimizdir və bizim üçün güc mənbəyidir.

Cəmiyyəti narahat edən məsələlərlə bağlı konkret addımlar atılır. Korrupsiyaya, rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılır. Həm inzibati tədbirlər, lazım gəldikdə cəza tədbirləri həyata keçirilir. Ən əsası odur ki, bu sahədə sistem xarakterli islahatlar, institusional islahatlar mühüm rol oynayır. Biz bu sahədə "ASAN xidmət"in fəaliyyətini qeyd etməliyik. Bu yaxınlarda "ASAN xidmət" BMT tərəfindən yüksək mükafatla təltif edilib. Qısa müddətdə, iki il ərzində 4 milyondan çox insan bu xidmətin imkanlarından faydalanıb. Biz bu şəffaflıq prinsiplərini bütün sistemimizə - dövlət quruculuğu sisteminə, maliyyə sisteminə tətbiq etməliyik və bu müsbət təcrübəni yaymalıyıq. Konkret tapşırıqlar verilib və əlavə tədbirlərin görülməsi üçün indi iş gedir.

İdarəetmə sahəsində müsbət islahatlar aparılır. Mən burada ictimai nəzarətin əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. Mən bu barədə dəfələrlə fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm ki, bu, mənim çox səmimi fikirlərimdir. İctimai nəzarət olmasa, ölkəmiz uğurla inkişaf edə bilməz. Bir adam - Prezident, yaxud da ki, rəhbər işçilər hər bir sahəni daim diqqət mərkəzində saxlaya bilməz. Ona görə bəzi hallarda qanunsuzluqlar, qanun pozuntuları, sosial ədalətin pozulması halları baş verir. Bu, bizi çox üzür. Biz buna yol verə bilmərik. Bunun qarşısını almaq üçün mütləq çox güclü ictimai nəzarət olmalıdır. Belə olarsa, o zaman işlər daha da sürətlə gedər və xoşagəlməz halların aradan qaldırılması üçün yeni bir mexanizm yarana bilər. Burada, əlbəttə ki, dövlət idarəetmə prinsiplərində ciddi islahatlar aparılmalıdır və eyni zamanda, ictimaiyyət də daha fəal olmalıdır. Biz bunu son vaxtlar görürük. Bizim ictimaiyyət hər hansı bir yerdə qanunsuzluqlar, pozuntular, ədalətsizliklər baş verdikdə dərhal reaksiya verir. Mən bunu alqışlayıram. Bu, bizə kömək edir. Bu canlı bağlantı daim olmalıdır və gücləndirilməlidir.

Azərbaycanda daxili siyasətlə bağlı digər məsələlər də müsbət istiqamətdə tənzimlənir. Xalqla iqtidar arasında birlik bizim uğurlu inkişafımızın əsas şərtidir. Azərbaycanın uğurlu inkişafı təmin edilir.

Təhlükəsizliklə bağlı tədbirlər indi bütün ölkələri düşündürür. Biz bu işlərlə ciddi məşğuluq və məhz buna görə Azərbaycanda kriminogen durum çox müsbətdir. Biz adambaşına düşən cinayətlərin sayının azlığına görə dünyada ən yaxşı yerlərdən birini tuturuq. Azərbaycanda siyasi, iqtisadi islahatlar, insanların rifah halının yaxşılaşması, eyni zamanda, təhlükəsizlik tədbirlərinin tətbiqi nəticəsində bu gün deyə bilərəm ki, ölkədə daxili təhlükə mənbəyi yoxdur. Əlbəttə ki, xaricdən təhdidlər ola bilər, xüsusilə, terrorizmlə bağlı təhdidlər. Ancaq bizim hüquq mühafizə orqanları bu məsələlərlə bağlı ciddi fəaliyyət göstərirlər. Əminəm ki, Azərbaycan xalqı bundan sonra da təhlükəsizlik şəraitində yaşayacaqdır.

Ölkəmizdə çoxsaylı beynəlxalq tədbirlər keçirilir. Mən bunu alqışlayıram. Deyə bilərəm ki, bir çox hallarda bu tədbirlərin təşəbbüskarı da mənəm. Mən hesab edirəm ki, bu, ölkəmizin inkişafı üçün çox vacibdir. Eyni zamanda, dünyada Azərbaycanı daha da çox tanıyacaqlar, Azərbaycana daha da çox hörmət edəcəklər. Deyə bilərəm, təmasda olduğum və Bakıya gələn bütün qonaqlarla apardığım söhbət əsnasında onlar qeyd edirlər ki, Azərbaycanın və Bakının bu qədər inkişaf etmiş ölkə və şəhər olduğunu gözləmirdilər.

Azərbaycanda siyasi tədbirlər, dövlət və hökumət başçılarının iştirakı ilə müzakirələr, forumlar, mədəniyyətlərarası forumlar keçirilir. Bu yaxınlarda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Qlobal Bakı Forumu keçirilmişdir. Azərbaycanda Beynəlxalq Humanitar Forum keçirilir. Bu tədbirlər, eyni zamanda, idman tədbirləri, Avropa Oyunları, İslam Həmrəylik Oyunları, digər beynəlxalq idman yarışları Azərbaycanı dünyaya inkişaf edən, müasir, güclü dövlət kimi təqdim edir. Bu, özlüyündə Azərbaycana qoyulan investisiyaların həcmində də, turistlərin artan sayında da özünü göstərir. Yəni, həm imic, həm təqdimat, həm də real iqtisadiyyat baxımından bunlar çox önəmli tədbirlərdir. Biz gələcəkdə də Azərbaycanda müxtəlif qlobal tədbirlərin keçirilməsini təmin edəcəyik. Bu gün Bakı, Azərbaycan regionun iqtisadi, siyasi və mədəni mərkəzlərindən biridir.

Xarici siyasətlə bağlı bizim düşünülmüş addımlarımız ölkəmizin imicini yüksəldir. Bu da göz qabağındadır. Biz bütün ölkələrlə bundan sonra da bərabərhüquqlu əlaqələrin inkişafını təmin edəcəyik. Bu, xarici siyasətimizin əsas prinsiplərindən biridir. Biz daha çox ikitərəfli formata üstünlük veririk. Biz görürük ki, ikitərəfli formatda çox böyük nailiyyətlər əldə etmək olar - həm siyasi əlaqələr, həm də iqtisadi investisiya baxımından. Azərbaycanın ikitərəfli formatda heç bir ölkə ilə heç bir problemi yoxdur. Əksinə, biz bütün ölkələrlə çox sağlam əlaqələr yarada bilmişik. Bu əlaqələr, əlbəttə ki, prinsiplər üzərində qurulmalıdır və qurulubdur. Bizim siyasətimiz həmişə bundan ibarət olmuşdur ki, burada bərabərhüquqlu, bir-birinə hörmət və bir-birinin işinə qarışmamaq prinsipləri əsasında üfüqi əlaqələr olmalıdır. Biz buna nail oluruq. Bizim həmişə təbliğ etdiyimiz bu prinsiplər bu gün başqa ölkələrlə əlaqələrimizdə üstünlük təşkil edir.

Beynəlxalq təşkilatlarla əlaqələrimiz də yüksək səviyyədədir. Biz beynəlxalq təşkilatlarda fəal iştirak edirik və bundan sonra da fəal iştirak edəcəyik. İlk növbədə, BMT-də və Qoşulmama Hərəkatında. Bu qurum BMT-dən sonra ölkələrin sayına görə ikinci təşkilatdır. Azərbaycan Qoşulmama Hərəkatına bir neçə il bundan əvvəl üzv olmuşdur və dərhal bu qurum Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü əsasında həlli ilə bağlı qətnamə qəbul etmişdir.

Azərbaycan müsəlman aləminin bir parçasıdır və İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının baş katibi ölkəmizdə olarkən Azərbaycanın rolu haqqında danışırdı. Eyni zamanda, biz Avropa Şurasının üzvüyük və bu yaxınlarda Avropa Şurasına sədrlik edirdik. Bu əməkdaşlıq da həm bizim, həm də Avropa Şurası üçün çox önəmlidir. Bu yaxınlarda III Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində qeyd edilirdi ki, məhz Azərbaycan "Bakı prosesi"nin müəllifi olmuşdur. "Bakı prosesi" Avropa Şurası ilə İslam Əməkdaşlıq Təşkilatı arasında mədəniyyət sahəsində və başqa sahələrdə dialoqun əsasını təşkil etmişdir.

Bizim bu nadir rolumuz bu gün həm müsəlman aləmində, həm də Avropada yüksək qiymətləndirilir. Sizə deyə bilərəm ki, heç bir başqa ölkə hazırda bu rolu öz üzərinə götürə bilməz, götürsə də, bizim qədər uğur əldə edə bilməz. Çünki Azərbaycanda bu müsbət prosesin inkişafı üçün çox möhkəm tarixi əsaslar var. Əsrlər boyu Azərbaycanda multikulturalizm meyilləri yaşayıb. Sadəcə olaraq bu, yeni söz olduğu üçün biz bu sözü bilmirdik və bu sözü tələffüz etmək o qədər də asan deyil. Ancaq bu anlayış Azərbaycanda həmişə var idi. Üstəgəl bu gün bizim dövlət siyasətimiz də bu əsaslar üzərində qurulur və bu siyasət real siyasətdir. Bu, hansısa şüar naminə deyilən sözlər deyil. Çünki bilirsiniz, beynəlxalq aləmdə hər kəs şüarı real işdən ayıra bilir. Ona görə bu nadir rolu Azərbaycan öz üzərinə götürüb. Götürməyə də bilərdi. Götürməsəydik də, bilirsiniz, hər halda bizim iqtisadi, siyasi inkişafımız üçün heç bir problem yaranmazdı. Amma biz bu rolu üzərimizə götürürük. Çünki biz istəyirik ki, dünyada müsbət meyillər üstünlük təşkil etsin. Biz istəyirik ki, dinlərarası əlaqələr normal, sağlam məcrada olsun. Əks təqdirdə, dünyada parçalanma meyilləri daha da güclənəcək. Biz onu görürük. Hazırda dini, milli zəmində, məzhəb əsasında qarşıdurmalar, qanlı toqquşmalar dünyanı fəlakətə aparır. Əlbəttə ki, ölkəmizin dünya xəritəsindəki coğrafi yeri o qədər də böyük deyil. Amma gördüyümüz işlər çox böyükdür. Biz bundan sonra da bu istiqamətdə səylərimizi göstərəcəyik.

Xarici siyasətimizin əsas problemi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Burada da bizim siyasətimiz və mövqeyimiz birmənalıdır. Birincisi, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Erməni lobbisinin çirkin səylərinə baxmayaraq, hesab edirəm, biz son illər ərzində apardığımız siyasət nəticəsində sübut edə bilmişik ki, bu, əzəli Azərbaycan torpağıdır. İkincisi, Dağlıq Qarabağ bütün beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır. Biz BMT-yə üzv olduqda Dağlıq Qarabağ da bütün dünya tərəfindən Azərbaycanın tərkib hissəsi, Azərbaycanın bir parçası kimi qəbul edildi. Bu gün siyasi müstəvidə, əlbəttə ki, Azərbaycanın siyasi çəkisi Ermənistanın çəkisi ilə müqayisəedilməz dərəcədədir. Üçüncüsü, iqtisadi amildir. Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatından ən azı on dəfə böyükdür və güclüdür. Əlbəttə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi var. Postsovet məkanında buna oxşar münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası qətnamə qəbul etməyib. Ancaq bu məsələ ilə bağlı qəbul olunmuş qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. Ermənistan bunu nə qədər təhrif etməyə çalışsa da, mümkün deyil, çünki bu, yazılıb və dərc edilib. Odur ki, siyasi, tarixi, hüquqi əsaslar var, onların hamısı bizim mövqeyimizi dəstəkləyir.

Eyni zamanda, Azərbaycanda çox müsbət demoqrafik dinamika var, əhalimizin sayı artır. Artıq 9 milyon 600 mindir. Ermənistanda isə əhali azalır. Həm təbii azalma, həm də ki, kütləvi köç baş alıb gedir. Onların rəsmi statistikasına görə, hər il təxminən 70-80 min vətəndaş Ermənistanı həmişəlik tərk edir. Hesab edirəm ki, real statistika bundan daha böyükdür. Ona görə bu güclər nisbəti göz qabağındadır. Münaqişə ancaq ölkələrin ərazi bütövlüyü çərçivəsində həllini tapa bilər.

Azərbaycanın ərazi bütövlüyü heç bir başqa ölkənin ərazi bütövlüyündən az əhəmiyyət kəsb etmir. Bunu hamı bilməlidir. Məsələ ərazi bütövlüyü çərçivəsində həllini tapacaq. Dağlıq Qarabağa heç vaxt heç bir müstəqillik verilməyəcək. Azərbaycan bunu heç vaxt qəbul etməyəcək və dünya bunu heç vaxt tanımayacaq. Bu yaxınlarda orada separatçı rejim və Ermənistan tərəfindən keçirilmiş saxta və qanunsuz "seçkilər" bir daha onu göstərdi ki, heç kim bunu tanımayıb və ölkələrin bir çoxu bu "seçkilər"i qınayıb.

Ordu quruculuğu prosesi bundan sonra da sürətlə gedəcək. Bu, bizim diplomatik sahədə apardığımız səylərə böyük dəstəkdir. Son vaxtlar, keçən ilin yayından başlayaraq bu günə qədər Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü təmin edib və düşmənə sarsıdıcı zərbələr endirib. Bu gün artıq Ermənistan rəhbərliyi etiraf edir ki, xarici yardım olmadan Azərbaycanın qabağını almaq mümkün olmayacaq. Biz isə həmişə deyirik ki, siz əgər ölmək istəmirsinizsə, Dağlıq Qarabağdan, işğal edilmiş torpaqlardan çəkilin. Ondan sonra sülh yarana bilər, ondan sonra Azərbaycan və erməni xalqları barışa bilərlər. Biz hər halda gələcəyi belə görürük. Biz hesab edirik ki, bu ədavət və düşmənçilik əbədi ola bilməz. Amma buna, ilk növbədə, sülhə nail olmaq üçün erməni silahlı qüvvələri Dağlıq Qarabağdan və işğal edilmiş torpaqlardan çəkilməlidir. Burada ən məqbul variant mərhələli həlldir. Biz dəfələrlə bu barədə öz sözümüzü demişik. Ancaq mərhələli həll burada məsələnin həllinə gətirib çıxara bilər. Əks təqdirdə, Ermənistan bundan sonra da daim qorxu, təşviş, isterika, vahimə içində yaşayacaq və gün gələcək ki, artıq Azərbaycan Ordusu öz sözünü deməli olacaq.

Bütün bu müsbət inkişafın təməlində, əlbəttə ki, bizim iqtisadi islahatlarımız, iqtisadi uğurlarımız dayanır. Mən bu barədə də kifayət qədər öz sözlərimi demişəm. Bütün iqtisadi göstəricilər ən müsbət mənzərə yaradır. Hətta bu il neftin qiymətinin iki dəfə aşağı düşməsinə baxmayaraq, iqtisadiyyatımız ötən dörd ayda beş faizdən çox, qeyri-neft sektorumuz təxminən yeddi faiz artıb. Qeyri-neft sektorumuz ümumi daxili məhsulumuzun təxminən 70 faizini təşkil edir. Valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuzun təxminən 70-75 faizini, bəlkə də daha çox təşkil edir. Xarici borc 10 faiz ətrafındadır. Yoxsulluq, işsizlik beş faiz səviyyəsindədir. Daha bundan artıq deməyə söz qalmır və ehtiyac da yoxdur.

Gələcəklə bağlı siyasətimiz ondan ibarətdir ki, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı təmin ediləcək. Azərbaycanda dayanıqlı inkişaf modeli tətbiq edilir. Əlbəttə ki, gələcəkdə sənayenin inkişafı, kənd təsərrüfatı istehsalının, ixrac potensialımızın artırılması daim diqqət mərkəzində olacaqdır.

Azərbaycanda indi sənayeləşmə prosesi gedir. Kənd təsərrüfatı da sürətlə inkişaf edir. Bu il "Kənd təsərrüfatı ili" elan edilmişdir. Əsas hədəfimiz budur ki, biz özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etməliyik. Həmçinin, güclü rəqabətqabiliyyətli ixrac potensialı da yaratmalıyıq. Çünki gələcəkdə kənd təsərrüfatımız ancaq ixrac hesabına sürətlə inkişaf edə bilər. Yaxın bir neçə il ərzində biz daxili tələbatı tam yerli istehsal hesabına təmin edəcəyik.

Nəqliyyatla bağlı gələcək planlarımız artıq görülmüş işlər əsasında qurulur. Ümid edirəm ki, Bakı-Tbilisi-Qars dəmir yolu yaxın vaxtlarda işə düşəcək. Bu da dünya üçün çox əhəmiyyətli layihədir. Hazırda Azərbaycanda yeddi aeroport fəaliyyət göstərir, onlardan beşi beynəlxalq statusa malikdir. Xəzərdə ən böyük dəniz limanı yaradılır. Eyni zamanda, gəmiqayırma zavodu işə düşüb, vaqonqayırma zavodu tikilir. Yəni, Azərbaycan logistik və nəqliyyat mərkəzi kimi artıq dünya xəritəsində öz mövcudluğunu təsdiq edir. Gələcəkdə bu sahəyə qoyulacaq investisiyalar, əlbəttə ki, çoxşaxəli nəqliyyat infrastrukturunun yaradılmasına kömək göstərəcək. Şimal-Cənub və Şərq-Qərb dəhlizləri Azərbaycan ərazisindən keçir. Hər iki istiqamətdə çox fəal iş aparılır.

Son müddət ərzində, keçən bayramlardan sonra, görün, energetika sahəsində nə qədər əhəmiyyətli hadisə baş vermişdir. Keçən il sentyabrın 20-də "Cənub" qaz dəhlizinin təməli qoyulmuşdur. O tarix də çox rəmzi məna daşıyır. Ondan sonra Bakıda "Cənub" qaz dəhlizinin Məşvərət Şurasının ilk toplantısı keçirilmişdir. Mart ayında isə Türkiyədə TANAP layihəsinin təməli qoyulmuşdur. İndi bütün səylərimiz ona yönəlib ki, bizi Gürcüstanla birləşdirən Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsini və TANAP-Trans-Anadolu layihəsinin inşasını vaxtında, bəlkə də vaxtından əvvəl təmin edək. Məncə, biz qarşımıza qoyduğumuz hədəflərə vaxtında, bəlkə də daha tez çatacağıq. Eyni zamanda, ümid edirəm ki, TAP-Trans-Adriatik layihəsinin qarşısında da heç bir süni əngəl meydana çıxmayacaq. Çünki əgər belə əngəl olarsa, o zaman, əlbəttə ki, burada udan tərəf olmayacaq.

Onu da qeyd etməliyəm ki, Azərbaycanın zəngin qaz resursları bizi və tərəfdaşlarımızı bundan sonra ən azı 100 il ərzində təmin edəcək. Əlbəttə ki, bizim bazarlara çıxışımızla bağlı konkret addımlar atılır. Əgər TAP layihəsində hər hansı bir problem yaranarsa, o zaman biz qazımızı daha çox Türkiyə bazarına ixrac edəcəyik. Hər halda, onu qeyd etməliyəm ki, bazarlarla bağlı bizim heç bir narahatlığımız yoxdur. Sadəcə olaraq, TAP iştirakçılarının hamısı gərək məsuliyyətli davransınlar və süni şəkildə problem yaratmasınlar. Gələcəkdə əlbəttə ki, "Cənub" qaz dəhlizinin tam şəkildə işə düşməsi "Şahdəniz" yatağının işlənməsi ilə bərabər bizim strateji hədəfimizdir.

Əslində qarşıda duran vəzifələr daha da çoxdur, bir çıxışda onların hamısını qeyd etmək mümkün deyil. Sadəcə olaraq, bəziləri haqqında fikirlərimi bildirdim. Həm söylədiyim sözlər, həm aparılan təhlil, həm gələcəyə olan baxışlarımız bir daha bizi əmin edir ki, Azərbaycanın inkişafı davamlı olacaq. Biz bundan sonra da inkişaf yolu ilə gedəcəyik. Bu inkişafın əsası bizim müstəqilliyimizdir. Müstəqilliyimiz bizim ən böyük dəyərimizdir, ən böyük sərvətimizdir. Biz müstəqilliyi qoruyuruq və qoruyacağıq.

Sağ olun.

## Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə uyğun olaraq və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 1997-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2015-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2015-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 may 2015-ci il.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Mühəndis-istehkam birləşmələrinin təlimləri keçirilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrin mühəndis-istehkam birləşmələrinin taktiki-xüsusi təlimləri keçirilib.

Təlimlərdə şəxsi heyət hücum əməliyyatlarında mühəndis təminatı tapşırıqlarının icrası üzrə fəaliyyətləri icra ediblər.

Üç mərhələdə keçirilən təlimlərdə birləşmələrin döyüşə hazır vəziyyətə gətirilməsi, səmləşmə rayonuna marş, ərazidə yerləşmə, hücum əməliyyatında mühəndis təminatına hazırlıq və onun yerinə yetirilməsi üzrə tapşırıqlar məşq etdirilib.

Təlim rəhbərləri və komandanlıq tərəfindən şəxsi heyətin gələcək döyüş əməliyyatlarına praktiki hazırlığı, bacarıq və vərdişləri yüksək qiymətləndirilib.

### Silahlı Qüvvələrin Baş Qərargah rəisi MDB Silahlı Qüvvələri Qərargah Rəisləri Komitəsinin iclasında iştirak edib

Mayın 27-də Azərbaycan Respublikasının Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov MDB-nin üzvü olan dövlətlərin Silahlı Qüvvələri Qərargah Rəisləri Komitəsinin Soçi şəhərində (Rusiya Federasiyası) keçirilən növbəti iclasında iştirak edib.

İclasda nümayəndə heyətlərinin rəhbərləri müdafiə sahəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***28 may 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 60 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Tərtər rayonunun Çaylı, Çiləbürt, Göyarx, Qızıloba, Ağdam rayonunun Şuraabad, Şıxlar, Yusifcanlı, Baş Qərvənd, Sarıcalı, Cəvahirli, Qiyaməddinli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Alxanlı, Aşağı Əbdürrəhmanlı Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

***29 may 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 78 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Ayqepar və Çinari kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Muncuqlu, Əlibəyli və Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Talış, Tərtər rayonunun Çaylı, Çiləbürt, Göyarx, Ağdam rayonunun Şuraabad, Şıxlar, Yusifcanlı, Sarıcalı, Cəvahirli, Kəngərli, Qaraqaşlı, Mərzili, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# "Azərbaycan zabiti dərin hərbi biliyə və yüksək mənəvi keyfiyyətlərə malik olmalıdır"

## Müdafiə naziri zabit hazırlığı kursunun dinləyiciləri ilə görüşüb





***Mayın 29-da H.Aslanov adına Mərkəzi Zabitlər Evində müxtəlif hərbi ixtisaslar üzrə bu il məzun olacaq gənc zabitlərlə görüş keçirilib.***

Öncə tədbirdə ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Dövlət himni oxunduqdan sonra Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov çıxış edərək, bu il ali hərbi təhsil müəssisələrini bitirən gənc zabitlərin yüksək hərbi biliklərə yiyələndiklərini və onların yekun imtahanlara hazır olduqlarını bildirib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu görüşün gənc zabitlərin həyatında əlamətdar hadisə olduğunu vurğulayıb, hərbçi peşəsinin müasir dövrdə mühüm və gərəkli bir peşə olduğunu diqqətə çatdırıb. Hazırkı dövrdə dövlətimizin rəhbərliyi tərəfindən ordu quruculuğuna ciddi diqqət yetirildiyini önə çəkən general-polkovnik Zakir Həsənov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin siyasi kursunda ölkənin hərbi qüdrətinin güclənməsinə önəm verildiyini söyləyib, son bir neçə ildə Silahlı Qüvvələrin müasir silah və hərbi texnika ilə təmin edildiyini, ordunun şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Gənc zabitlərin mühüm və məsuliyyətli bir peşə seçdiklərindən məmnunluğunu ifadə edən Müdafiə naziri 35 il öncə özünün də gənc zabit kimi ali hərbi məktəbi bitirdiyi dövrü xatırladıb, amma həmin dövrün tamamilə fərqli bir zaman olduğunu, azərbaycanlıların hərbi peşələrə yiyələnməsinə imperiya qüvvələrinin qısqanc münasibət bəslədiyini qeyd edib. "O vaxt Azərbaycan müstəqil dövlət olmadığına görə milli hərbi ənənələrimizin inkişaf etdirilməsinə imkan vermirdilər. Mən indi fikirləşirəm ki, ümummilli liderimiz hələ o zaman indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratmaqla xalqımız üçün, bu günümüz üçün nə qədər mühüm addım atıb. Elə bil ki, müdrik rəhbər bununla nə vaxtsa Azərbaycanın müstəqil dövlət olacağını düşünmüşdü. Ona görə də müasir Azərbaycan Ordusunun yaranmasında və formalaşmasında ulu öndərin müstəsna xidmətləri daim xatırlanır, yada düşür", - deyə nazir bildirib.

Müdafiə naziri qeyd edib ki, müasir gənclik, həmçinin, zabit peşəsinə yiyələnən hər bir azərbaycanlı xalqımızın tarixini dərindən öyrənməli, zaman-zaman imperiya qüvvələrinin dəstəyi ilə xalqımızın başına gətirilmiş soyqırımlardan məlumatlı olmalıdır. Vətəni qorumağın, müdafiə etməyin zabit peşəsini seçən hər kəsin əsas vəzifəsi olduğunu qeyd edən nazir tövsiyə edib ki, vətənpərvər olmaq üçün öncə mənsub olduğun xalqın, millətin tarixi keçmişini mükəmməl bilməlisən. "Qarabağ müharibəsindən sonra xeyli əsərlər yazılıb, kino və sənədli filmlər çəkilib, muzeylərdə soyqırımı əks etdirən eksponatlar toplanıb. Bütün belə vəsaitlərin köməyi ilə gənc zabit öz Vətəninin keçmişi barədə kifayət qədər məlumat öyrənə bilər. Ümumiyyətlə, tarixi yaddaşı unutmaq olmaz".



Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Müharibə bitməyib, davam edir və biz torpaqlarımızı nəyin bahasına olursa-olsun, azad etməliyik" sözlərini xatırladan Müdafiə naziri yaxın vaxtlarda hərbi hissələrə təyin ediləcək gənc zabitlərə məsləhət görüb ki, tabelikdə olan şəxsi heyəti ölkə başçısı tərəfindən qarşıya qoyulmuş bu mühüm vəzifənin yerinə yetirilməsi üçün səfərbər etmək onların başlıca fəaliyyət prinsipi olmalıdır. "Gərək tabeliyinizdə olan şəxsi heyətə hərbi vərdişləri, vətənpərvərlik hisslərini aşılamaqla onları istənilən anda döyüşə səfərbər etməyi bacarasınız. Unutmayın ki, torpaqlarımız işğaldan azad edilmədiyi təqdirdə, ordumuz istənilən anda müharibəyə hazır olmalıdır. Dövlətimizin və xalqımızın dəstəyi nəticəsində Azərbaycanın hərbi qüdrəti getdikcə güclənir. Ordumuzun silahlanmasına müasir döyüş texnikaları, yeni tank və zirehli döyüş maşınları daxil edilir. Amma bu müasir silah və texnika şəxsi heyət tərəfindən bacarıqla istifadə edilməlidir".

Müdafiə naziri çıxışına davam edərək zabitlərə dövlətimiz tərəfindən yüksək diqqət və qayğı göstərildiyini nəzərə çatdıraraq bildirib ki, müasir dövrdə Azərbaycanın hərbi büdcəsindən sosial sahəyə xeyli maliyyə vəsaiti ayrılır. "Hazırda yeni hərbi hissələrin tikintisinə və təmirinə yetərli vəsait yönəldilib. Müasir tələblərə tam cavab verən yeni əsgər yataqxanaları, yeməkxanalar, hamam və camaşırxana kompleksləri, həmçinin müasir xidməti mənzillər tikilərək hərbi qulluqçuların ixtiyarına verilir. Bir sözlə, dövlət, xalq çalışır ki, ordumuz hərtərəfli təminata malik olsun. Şəxsi heyətin ərzaq və əşya təminatı sahəsində də uğurlu islahatlara imza atmışıq. İndi əsgərlərimiz üçün keyfiyyətli yeməklər hazırlanır. Bütün sadaladığım işlər dövlət rəhbərliyinin orduya diqqət və qayğısının bariz nümunəsidir".

Ölkəmizin hərbi qüdrətinin güclənməsində hazırlıqlı hərbi kadrların əsas rol oynadığını vurğulayan nazir çıxışında Azərbaycanın hərbi təhsil müəssisələrində müasir tələblərə cavab verən təlim-tərbiyə sisteminin qurulduğunu, gənc zabitlərin hərtərəfli biliyə yiyələnmələri üçün geniş imkanların yaradıldığını diqqətə çatdıraraq deyib: "Mən daim arzu edirəm ki, gənc zabitlərimiz yüksək hərbi biliyə və döyüş vərdişlərinə yiyələnməklə yanaşı, müasir dünyagörüşə və zəngin milli-mənəvi xüsusiyyətlərə malik olsunlar. Bacarıqlı zabitin, komandirin yetişməsində, şübhəsiz ki, onda liderlik keyfiyyətlərinin formalaşması da az rol oynamır. Gərək hər bir zabit xidmətə başladığı ilk gündən şəxsi heyətə nümunə olmağı bacarsın. Bundan ötrü isə zabit şərəf və ləyaqət hissini hər şeydən uca tutmalıdır. Siz tabeliyinizdə olanlara vətənpərvərlik hisslərini aşılamaq üçün yaxın keçmişimizin qəhrəmanlıq nümunələrini şəxsi heyətə təbliğ etməlisiniz. Məsələn, Mübariz İbrahimovun qəhrəmanlığı bügünümüzə dəyərli örnəkdir. "Mən onu hələ Daxili Qoşunlardan yaxşı tanıyırdım, xüsusi təyinatlı qüvvələrdə xidmət edirdi. Qorxmaz, cəsarətli, olduqca vətənpərvər bir gənc idi. Diqqət yetirin, onun qəhrəmanlığı bütün dünyaya səs saldı. Gərək belə qəhrəmanlarımızı şəxsi heyətə yaxşı tanıdaq, döyüşçülərimizi onun kimi vətənpərvər, fədakar olmağa ruhlandıraq. Bu məqsədlə yorulmadan öyrənmək, təlim və məşğələlərdə hərbi vərdişlərə yiyələnmək lazımdır".

Müdafiə naziri gənc zabitlərə tövsiyə edib ki, əsgərlərə diqqət və qayğı göstərilməsi onların döyüş ruhunun yüksəlməsinə zəmin yaradan əsas amillərdəndir. "Tabeliyinizdə olanların hər birinə həssaslıqla yanaşın, dərdsərinə şərik olun, əsgərin ailə problemi yaranarsa, ondan diqqətinizi, köməyinizi əsirgəməyin. Səmimi hərbi kollektiv yaratmağa çalışın. Qoy əsgər ürəkli olsun, sizə təkcə komandir kimi deyil, həm də böyük qardaş gözüylə baxsın. Çoxlarınız ön xətdə yerləşən hərbi bölmələrdə xidmətə başlayacaqsınız. Döyüş növbətçiliyini yerinə yetirən əsgərə münasibətdə naşılığa yol verməK olmaz, əksinə, o əsgərin inam və etibarını qazanmaq vacib şərtdir. Siz unutmayın ki, bizi qarşıda müharibə gözləyir, bu gün tabeliyinizdə olan əsgərlə döyüşə atılmağın məsuliyyətini dərindən başa düşün. Məhz buna görə də əsgərin rəğbətini, inamını qazanmaq gərəkdir. Bu məqsədlə bölmədə sosial bərabərlik və ədalət prinsiplərinə əməl edilməlidir.

Hər bir zabit öz zahiri görkəmi, intizamı və səliqə-sahmanı, davranışı ilə seçilməlidir. Mən şəhərdə intizamlı, şux görkəmli, nümunəvi zabit görəndə qürur duyuram ki, ordumuzda belə dəyərli zabitlərimiz var. Xalqımız da öz ordusuna, zabitinə güvənir. Hamı istəyir ki, ordunun əsgər və zabitləri vətənpərvər, intizamlı və savadlı olsunlar".

Müdafiə naziri çıxışının sonunda gənc zabitlərə uğurlar arzulayaraq əmin olduğunu bildirib ki, onlar hərbi təhsil dövründə qazandıqları bilik və vərdişlərlə ölkəmizin hərbi qüdrətinin daha da güclənməsinə öz töhfələrini verəcəklər.

Sonda general-polkovnik Zakir Həsənov gənc zabitləri maraqlandıran sual və təklifləri ətraflı cavablandırıb.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Şəhid əsgər Zəlimxan Cavadovun medalı onun valideynlərinə təqdim olunub





Vətən qarşısında xidməti vəzifəsini yerinə yetirərkən şəhid olmuş əsgər Zəlimxan Eybalı oğlu Cavadovun Azərbaycan Respublikası Prezidentinin adından Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə ölümündən sonra təltif edildiyi "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal şəhidin valideynlərinə təqdim olunub.

Qobustan rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov çıxış edərək bildirib ki, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi həmişə əziz tutulur, onların adları əbədiləşdirilir, şəhid ailələri isə daim ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunur.

Qobustanlı gənclər Silahlı Qüvvələrdə xidmətdən fəxr duyur və hərbi peşəni - Vətənə xidmət peşəsini həvəslə seçirlər. 80 nəfərdən artıq qobustanlı Azərbaycanın ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır.

Respublika günü ərəfəsində şəhidlərimizin layiq görüldüyü medalın ailəsinə təqdim olunması unudulmaz hadisədir.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Müdafiə naziri general-polkovnik Zakir Həsənovun salamlarını tədbir iştirakçılarına çatdıraraq qeyd edib ki, Vətən uğrunda şəhid olanların hər birinin xidməti yüksək qiymətləndirilir və onların ailələri Müdafiə Nazirliyinin diqqətindədir.

Medal təqdim edildikdən sonra şəhidin atası Eybalı Cavadov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qobustan rayon bölməsinin rəisi polkovnik-leytenant Mərdan Nəhmətov və başqaları çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə, Müdafiə Nazirliyinin rəhbərliyinə göstərdikləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyə polisi İstanbulda genişmiqyaslı antiterror əməliyyatı keçirib



Türkiyə polisi İstanbulda genişmiqyaslı antiterror əməliyyatı keçirib. Əməliyyata 800 polis əməkdaşının, zirehli texnika və helikopterin cəlb olunduğu bildirilir.

Rəsmi medianın məlumatına görə, əməliyyat şəhərin 10 rayonunda olmaqla 30 ünvanda aparılıb. MKP terror qruplaşması ilə əlaqəli olan on nəfərin şübhəli qismində həbs edildiyi bildirilir. Onlar mayın 1-də kütləvi iğtişaşlar yaratmaqda təqsirli bilinirlər.

Axtarış aparılmış ünvanlardan xeyli silah və sursat ələ keçirilib.

### "Forbes"in reytinqinə yenə də Angela Merkel başçılıq edir



"Forbes" jurnalı dünyanın ən nüfuzlu qadınlarının siyahısını tərtib edib. Zərif cinsin 100 nümayəndəsinin daxil olduğu reytinqə artıq doqquzuncu dəfədir Almaniya kansleri Angela Merkel başçılıq edir.

Siyahıda ikinci yeri ABŞ Prezidenti postuna namizədliyini irəli sürmüş keçmiş dövlət katibi Hillari Klinton tutur. 2014-cü ildə o, altıncı pillədə yer almışdı.

Peytinqin üçüncü pilləsində ötən il olduğu kimi, bu dəfə də Melinda Qeyts qərarlaşıb. O, milyarder Bill Qeytsin həyat yoldaşı və eyniadlı xeyriyyə fondunun həmtəsisçisidir.

### Tacikistan "OMON"-unun komandiri İŞİD qruplaşmasına qoşulub



Tacikistan xüsusi təyinatlılarının bir ay əvvəl yoxa çıxmış komandiri, milis polkovniki Gülmurod Halimov İŞİD qruplaşmasının tərəfinə keçib.

TASS xəbər verir ki, bu, onun sosial şəbəkələrdə yayılmış video-müraciətindən bəlli olub. Videoda polkovnik "silahdaşlarının" əhatəsində görünür. Tacikistanın xüsusi xidmət orqanlarındakı məlumatlı mənbə də elit milis dəstəsi komandirinin İŞİD-ə qoşulduğunu və Suriyada olduğunu təsdiqləyib.

Qırx yaşlı polkovnik üç il idi ki, xüsusi təyinatlı dəstəyə rəhbərlik edirdi və dəfələrlə dövlət mükafatları ilə təltif olunmuşdu. G.Halimov səkkiz uşaq atasıdır.

### FİFA-da korrupsiya qalmaqalı: 14 məmura 47 bənd üzrə ittiham irəli sürülüb



Nyu-Yorkun Bruklin federal məhkəməsi mayın 27-də FİFA-nın 14 məmuru barədə cinayət işi açıb. Onlar korrupsiyada, çirkli pulların yuyulmasında, həmçinin marketinq və yayımla bağlı cinayətkar sövdələşmələrdə ittiham olunurlar. ABŞ Ədliyyə Nazirliyinin yaydığı son məlumata görə, ittiham olunanlardan dördü artıq öz günahını boynuna alıb.

İnterfaks informasiya agentliyi xəbər verir ki, ABŞ Ədliyyə Nazirliyinin saytında onların təşkil etdiyi korrupsiya sisteminin artıq 24 ildir fəaliyyət göstərdiyi qeyd olunur. Həbs edilənlər arasında FİFA-nın vitse-prezidentləri Cefferi Uebb, Euxenio Fiqeredo və başqaları var. Bundan başqa, İsveçrə polisi və ədliyyəsinin federal departamenti FİFA-nın mənzil-qərargahından 2018-ci və 2022-ci illərdə keçiriləcək futbol üzrə dünya çempionatında ev sahibi olacaq ölkələrin seçimində korrupsiya hallarını və pulların yuyulmasını araşdırmaq üçün lazımi sənədləri götürüb.

### İraq ordusu Ramadi şəhərinin iki rayonunu İŞİD-dən geri alıb



İraq ordusu "Əl-Haşid əş-Şaabi" şiə silahlı qruplaşmasının dəstəyi ilə Ənbar əyalətinin inzibati mərkəzi olan Ramadi şəhərinin iki rayonunu İŞİD-dən geri alıb. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bunu əyalət şurasının üzvü Racea əl-İsaui bildirib. Onun sözlərinə görə, təhlükəsizlik qüvvələri və "Əl-Haşid əş-Şaabi" şiə silahlı qruplaşmasının yaraqlıları mayın 27-də şəhərin Ət-Taş və Əl-Humeyrə rayonlarını azad edib.

İŞİD qruplaşmasının Ramadi şəhərinə hücumları mayın 15-də başlayıb. Mayın 17-də isə şəhər üzərində nəzarətə tam yiyələnən yaraqlılar "Ənbar" komandanlığının operativ mənzil-qərargahını tutub və çox sayda hərbi texnikanı qənimət götürüblər.

### Hindistanda ən azı 1200 nəfər anomal istilərin qurbanı olub



Hindistanda artıq 10 gündür davam edən anomal istilərin qurbanları artmaqda davam edir. İndiyədək ölənlərin sayı ən azı 1200 nəfərə çatıb.

AZƏRTAC xəbər verir ki, gün vurmasından həyatını itirənlər barədə yeni məlumatlar şiddətli istilərin hökm sürdüyü cənub-şərq bölgələrindən - Andxra-Paradeş və Telanqa ştatlarından gəlir. Bu ştatlarda gündüzlər havanın hərarəti 48,8 dərəcəyə qədər qalxır.

Həkimlər yerli əhaliyə mümkün qədər çox maye qəbul etməyi, gündüzlər küçəyə çıxmamağı və fiziki fəallığı məhdudlaşdırmağı məsləhət görürlər.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Müstəqilliyimizin təntənəsi

## Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində 28 May - Respublika Günü geniş qeyd olunub



***28 May - qürur və şərəf günümüzdür! Artıq Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından 97 il keçir. Bu tarixi gün xalqımızın keçmişində ən mühüm hadisə kimi yer tutur. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış xalqımızın müstəqillik əzmini bununla bütün dünyaya nümayiş etdirib. Azərbaycan Xalq Cümhuriyyətinin 97-ci ildönümü ölkəmizin hər yerində olduğu kimi, Silahlı Qüvvələrin hərbi hissə və birləşmələrində də təntənə ilə qeyd edilib. Bütün tədbirlərdə Azərbaycan Respublikasının Dövlət himni oxunub, ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.***

"N" hərbi hissəsində də həmin gün böyük coşqu var idi. Hər tərəf bayramsayağı bəzədilmişdi. Əlamətdar günə həsr olunan tədbiri polkovnik-leytenant Hümmət Bəndəliyev açıq elan edib.

Polkovnik-leytenant Ədalət Hacıyev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 28 May - Respublika Günü münasibəti ilə şəxsi heyətə təbrik məktubunu oxuyub.

Sonra çıxış etmək üçün söz baş leytenant Məhəmməd Əliyevə verilib. O, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından və fəaliyyətindən geniş söhbət açıb.



Hərbi hissənin şəxsi heyəti təntənəli marşla tribunanın önündən keçib.

Bayram tədbiri konsert proqramı ilə yekunlaşıb.

* * *

28 May - Respublika Günü münasibətilə Sumqayıt, Xırdalan və Qusar şəhərlərində də təntənəli mərasimlər keçirilib. Ordu birliyi komandanlığının təşəbbüsü və iştirakı ilə tədbirlər plana uyğun olaraq keçirilib.

"N" hərbi hissəsində keçirilən tədbirdə ilk olaraq polkovnik İlqar Lətifovun təbrik məktubu şəxsi heyətə çatdırılıb.

Mərasimdə çıxış edən polkovnik Münasib Babayev də öz növbəsində şəxsi heyəti təbrik edərək bu günün tarixi əhəmiyyətindən və çətinliklə qazanılmış müstəqilliyin qorunması üçün Azərbaycan əsgərinin rolundan danışıb. Qeyd edib ki, ulu öndərimiz Heydər Əliyevin miras qoyduğu müstəqilliyi qorumaq hər bir azərbaycanlının borcudur.

Tədbirdən sonra Sumqayıt, Xırdalan və Qusar şəhərlərində yerləşən Heydər Əliyev parklarında hərbi hissələrin şəxsi heyətinin iştirakı ilə nizami yürüş keçirilib. Nizami keçidi orkestr müşayiət edib. Keçirilən yürüş əhalinin böyük marağına səbəb olub.

* * *

Bu günlərdə Hərb Tarixi Muzeyində Müdafiə Nazirliyinin, ali hərbi təhsil müəssisələrinin, veteran təşkilatlarının, şəhər muzeylərinin və digər qurumların nümayəndələrinin iştirakı ilə 28 May - Respublika Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbiri açıq elan edən muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə müsəlman Şərqində ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 97-ci ildönümü münasibətilə qonaqları təbrik edib. O, çıxışını 1918-1920-ci illərdə mövcud olan, xalqımızın müstəqillik arzularının təsdiqi olan Azərbaycan Xalq Cümhuriyyətinin çətin və mürəkkəb tarixindən danışıb. Qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir.

Tədbirdə muzey əməkdaşlarının məruzələri dinlənilib.

Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyətinin ideyaları davam etdirilərək, 18 oktyabr 1991-ci ildə yenidən dövlət müstəqilliyimiz bərpa ediləndə məhz həmin tarixi varislik üzərində yeni, müstəqil Azərbaycan dövləti quruldu. Hazırda müstəqil Azərbaycan dövləti hərtərəfli inkişaf edir. Ulu öndərimiz Heydər Əliyev tərəfindən xilas edilən və müasir mərhələdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında inkişaf edən, öz iqtisadi qüdrəti və hərbi potensialı ilə regionda güc mərkəzinə çevrilən Azərbaycan dövləti gündən-günə möhkəmlənir.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının konsert proqramı qonaqlarda yüksək bayram əhval-ruhiyyəsi yaradıb.

* * *



Azərbaycan Xalq Cümhuriyyətinin 97-ci ildönümü ilə bağlı tədbirlərdən biri də Hərbi Dəniz Qüvvələrinə məxsus "N" hərbi hissəsində baş tutub.

Mərasimi zabit Adil İsayev açdı və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və Hərbi Dəniz Qüvvələri komandanının şəxsi heyətə təbriklərini çatdırdı.

Zabit Ariz Qəhrəmanov ölkəmizin dövlətçilik tarixində mühüm yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin yaranma zərurəti və tarixi əhəmiyyəti barədə çıxış etdi.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin bədii kollektivinin iştirakı ilə keçirilən bayram konserti, zabit, mişman və matrosların zövqünü oxşadı.



Hərbi Dəniz Qüvvələrinin nümunəvi hərbi orkestri Respublika Günü ilə bağlı maraqlı repertuar hazırlamışdı. Orkestrin Milli Parkda konsert proqramı ilə çıxışı tamaşaçıların marağına səbəb oldu və paytaxt sakinləri tərəfindən alqışlarla qarşılandı.

* * *

Dövlətçiliyimizin tarixi min illərin o üzü ilə səsləşir. Heradotun "Tarix"ində də adı gedən dövlətçiliyimiz zaman-zaman sınaqlara çəkilib, sərhədlərimiz müxtəlif dövrlərdə genişlənib-daralsa da, dövlətçiliyimiz müxtəlif adlarla var olsa da, qılıncla qorunub: Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilər, Şirvanşahlar...

Sonra xanlıqlar...

Sonra "Gülüstan" müqaviləsi...

90 ildən sonra Tiflisdə elan edilən İstiqlal Bəyannaməsi, dövlətçiliyimizin bərpası - 28 May. 90 ildən sonra bu anım tarixinin Respublika Günü kimi qeyd olunması haqqında fərman...

28 May milli mücadilə, istiqlal yoludu...

Respublika Günü Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində coşqu ilə qeyd edildi.

...Tədbiri polkovnik-leytenant Mikayıl Hüseynov açaraq bu günün mahiyyətindən, xalqımızın milli-azadlıq mübarizəsindən danışdı.

Tədbirə dəvət olunmuş AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Asif Rüstəmli çıxışında kursantlara xitabən dedi:

- Dövlət himnimizi bir səslə ifa elədiniz. 1919-cu ildə "Azərbaycan" qəzetində dərc olunmuş bir məqaləni xatırladım. 96 ildən sonra həmin sevgini burda gördüm. 1919-cu ilin 28 May günü 7-10 yaşlı uşaqlar - təxminən 30 nəfər - indiki İstiqlal küçəsindən keçərək ruhları titrədən şərqilər oxuyurmuş. Bir əlində üçrəngli bayrağımız, digər əlində taxtadan düzəldilmiş silah. O uşaqlar sonra milli ruhumuzun daşıyıcısı olublar.

Professor Asif Rüstəmli ilk Hərbiyyə nazirinin Xosrov paşa Sultanov olduğunu, 2 həftədən sonra başqa vəzifəyə dəyişdirildiyi üçün bu vəzifəyə tam artilleriya generalı Səməd bəy Mehmandarovun təyin edildiyini, o dövrdə hərbi attaşeliyin də yaradıldığını, bu vəzifəyə polkovnik Məhəmməd bəy Əliyevin təyin edildiyini də qeyd etdi. Onun çıxışında səslənən bir məlumatı kursantlar daha həssaslıqla dinlədilər. Məlum oldu ki, indiyəcən ilk hərbi təyyarəçi kimi Fərrux ağa Qayıbovu tanımışıq. Əslində, F.Qayıbov pilot yox, hərbi döyüş təyyarəsində atıcı olub. 1919-cu ilin may ayında Hərbiyyə naziri S.Mehmandarovun əmri ilə hərbi təyyarəçilik ixtisasına yiyələnməsi üçün iki gənc Tiflisə göndərilib. Onlardan biri Xan Əfşar Teymurçin olub.

Professor çıxışını "28 May Azərbaycan xalqının milli pasportu kimi qəbul edilən gündür" fikri ilə tamamladı.

Tədbirdə şair Oqtay Rza Respublika Günü haqqında müxtəsər söz açaraq şeirlər oxudu.

Məktəbin bədii özfəaliyyət kollektivinin konserti ilə tədbir başa çatdı...

**“Azərbaycan Ordusu”**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

### Gəncədə 6 min gəncin iştirakı ilə "Bakı-2015"-in möhtəşəm fləşmobu




"Bakı-2015" I Avropa Oyunları ərəfəsində Gəncədə 6 min nəfərin iştirakı ilə möhtəşəm fləşmob təşkil olunub. AZƏRTAC xəbər verir ki, "Bakı-2015"-in loqosu formasında düzülən gənclər bununla həm də birinci Avropa Oyunları ətrafında birləşdiklərini nümayiş etdiriblər. Bu aksiya, eyni zamanda, "Ginnesin dünya rekordları"nın komissiyası tərəfindən izlənilib. Gəncədə 6 min nəfərin "Bakı-2015" birinci Avropa Oyunlarının rəmzini yaratması ilə bu rekord təzələnib. Bundan əvvəl 4200 nəfərin iştirakı ilə İraq bayrağının təsviri aprelin 2-də Bağdadda "Ginnesin dünya rekordları"nın siyahısına düşmüşdü.

### I Avropa Oyunlarında şose velosipedi üzrə qadın idmançılarımız yarışa hazırdırlar



"Bakı-2015" birinci Avropa Oyunlarının şose velosipedi yarışlarında kişilərlə yanaşı, iki qadın idmançımız da iştirak edəcək. Bunlar Ülfət Nəzərli və Yelena Pavluxinadır. AZƏRTAC xəbər verir ki, "Atasport" klubunun təmsilçisi Ülfət Nəzərli Azərbaycan çempionatının mükafatçısıdır. 26 yaşlı Yelena Pavluxina isə bir neçə gün öncə Xızıda təşkil olunan Azərbaycan çempionatında qalib gəlib.

Birinci Avropa Oyunlarının velosiped yarışları iyunun 18-21-də keçiriləcək. Yelena Pavluxina fərdi və qrup, Ülfət Nəzərli isə qrup ötüşməsində mübarizə aparacaq.

### Birinci Avropa Oyunlarına 200 minədək bilet satılıb



İyunun 12-28-də Bakıda keçiriləcək I Avropa Oyunlarına bilet satışı davam edir. "Bakı-2015" birinci Avropa Oyunları Əməliyyat Komitəsindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, artıq 200 minədək bilet satılıb. Açılış mərasimi üçün nəzərdə tutulan biletlərin isə 70 faizi artıq satılıb. Birinci Avropa Oyunları üçün 600 min bilet satışa çıxarılıb. Bilet satışı prosesi hazırda davam edir və Oyunlara maraq olduqca böyükdür. Xarici ölkələrdən əsasən, Böyük Britaniya, Rusiya, Almaniya, Hollandiyadan daha çox biletin alındığı müşahidə olunur.

### Boksçularımızdan 6 medal



Ukraynanın Lvov şəhərində boks üzrə yeniyetmələr arasında Avropa birinciliyinə yekun vurulub. Apasport.az saytının məlumatına görə, komandamız yarışda 2 qızıl, 2 gümüş və 2 bürünc medala sahib olub. Bəxtiyar Qazıbəyov (60 kq) finalda Türkiyə boksçusu Tugrulhan Erdemiri məğlub edərək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Məhəmməd Abdullayev də (+80) Avropa birinciliyinin qızıl medalına sahib olub. Cavid Hüseynov (48 kq) və Niyaməddin Allahverdiyev finalda uduzaraq, 2-ci yeri tutublar. Orxan Həsənov (54 kq) və Şaiq Məlikov (70 kq) 3-cü yerlə kifayətləniblər. Azərbaycan Ukraynadan sonra komanda hesabında 2-ci yeri tutub.

### Gənc güləşçilərimiz Antalyada doqquz medal qazanıblar



Antalyada Mithat Bayrak və İsmət Atlının xatirəsinə sərbəst, yunan-Roma və qadın güləşi üzrə gənclər arasında 18-ci beynəlxalq turnirə yekun vurulub.

AZƏRTAC xəbər verir ki, yunan-Roma güləşçimiz Kərim Cəfərov (60 kq) bürünc medala sahib olub. Gənc qızların mübarizəsində isə Səbirə Əliyeva (72 kq) bütün rəqiblərindən üstün olub və fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Beləliklə, güləşçilərimiz Antalyada keçirilən turniri ümumilikdə 3 qızıl, 2 gümüş və 4 bürünc medalla başa vurublar. Komanda hesabında sərbəst güləşçilərimiz 3-cü yerdə qərarlaşıb.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kiçik çavuş Hüseynov Fəxri Mehman oğluna (AD № 0013226) verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu əsgər Mahmudov Ülvi İnsaf oğluna 2013-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

***29 May - Beynəlxalq BMT Sülhməramlılar Günüdür. Dünyada təhlükəsizliyin təmin edilməsində 17 missiya çərçivəsində 120 000 sülhməramlı fəaliyyət göstərir. 1948-ci ildən fəaliyyətə başlayan sülhməramlı missiya qaynar nöqtələrdə sülhü təmin etmək üçün çalışır. Beynəlxalq Sülhməramlılar Gününün təsis olunması sülhün təmin olunmasında həlak olanları yad etmək üçün bir imkandır.***

# Sülhməramlılarımız Azərbaycanı layiqincə təmsil edirlər

## BMT tərəfindən Beynəlxalq Sülhməramlılar Günü qeyd olunub

Qlobal təhlükəsizliyin təmin olunması zamanı həlak olan sülhməramlılar hörmətə və sayğıya layiqdirlər. Sülhməramlılar Günündə vəzifə borcunu yerinə yetirərkən həyatlarını itirmiş sülhməramlılar hörmətlə yad edilir.

Azərbaycan da artıq bir neçə ildir ki, beynəlxalq sülhməramlıların tərkibində təmsil olunmaqdadır. Ölkəmiz dünyada sülhün bərqərar olunmasında fəal iştirak edir və qlobal təhlükəsizlik naminə dünya nəhəngləri ilə birgə addımlayır. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəldikdən sonra Silahlı Qüvvələrdə həyata keçirilən quruculuq işləri, struktur dəyişiklikləri, döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, hissələrin hərb elminin tələblərinə uyğun idarə edilməsi, kadrların saflaşdırılması, qoşun hissələrinin təxribatçı və siyasi ünsürlərdən təmizlənməsi Azərbaycan Ordusunu keyfiyyətcə yeniləşdirdi. 90-cı illərin ortalarından başlayaraq, Azərbaycan və NATO arasında sıx və səmərəli əməkdaşlığın yaradılması ordu quruculuğu prosesinin sürətlə təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına gətirib çıxartdı. 1997-ci ildən Azərbaycanın hərbi təhsil müəssisələri NATO standartlarına keçib, Silahlı Qüvvələrimizin tərkibində yaradılan sülhməramlı bölük, daha sonra isə sülhməramlı tabor NATO xəttilə həyata keçirilən hərbi-humanitar aksiyalarda fəal iştirak edir, münaqişə ocaqlarında təhlükəsizliyin, sülhün təminatına əsgəri dəstək verir. Azərbaycan Ordusu bu gün dünyanın peşəkar, NATO standartlarına cavab verən orduları ilə bir sırada dayanır. Bunu beynəlxalq təşkilatlar da təsdiq edir. Bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin əməyinin bəhrəsidir. Prezident, Ali Baş Komandan İlham Əliyev ulu öndərin ideyalarını layiqincə yerinə yetirərək Azərbaycan Silahlı Qüvvələrinin müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olub.



Bu gün sülhməramlı missiyanı həyata keçirən taborun şəxsi heyəti intensiv olaraq təlim keçir və xidmətlərini davam etdirmək üçün qaynar nöqtələrə göndərilir. Hazırda Əfqanıstanda təhlükəsizliyi təmin edən beynəlxalq qüvvələr strukturunda 90 azərbaycanlı sülhməramlısı xidmət edir.

Xatırladaq ki, Azərbaycan Ordusu müxtəlif vaxtlarda beynəlxalq sülhün yaradılmasına töhfələr verib. Belə ki, Kosovoda Azərbaycanın 34, İraqda 150 sülhməramlısı əməliyyatlarda iştirak edib.

Fəxrlə qeyd edək ki, sülhməramlı missiyanı yerinə yetirən 9 Azərbaycan hərbçisi ABŞ Hərbi Dəniz Piyadalarının medalına layiq görülüb. Həmçinin İraqda keçirilən sülhməramlı missiyada Azərbaycan hərbçiləri ABŞ və Kanadadan sonra üçüncü yerə layiq görülmüşdü.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. “Azərbaycan Ordusu” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 480
Nüsxə 4600